# Azərbaycanın haqq savaşı xarici mətbuatda



“Reuters” agentliyi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi zamanı öz doğma yurdlarından qovularaq köçkün vəziyyətinə düşmüş, ölkənin müxtəlif rayonlarında məskunlaşmağa məcbur olan azərbaycanlıların son günlərdə Azərbaycan Ordusunun uğurlu əməliyyatları nəticəsində bir sıra ərazilərin işğaldan azad edilməsi barədə fikirləri və təəssüratları yer alıb.

Bakıdakı məcbur köçkünlərin yaşadıqları qəsəbənin 80 yaşlı sakini Həsən Əhmədov Azərbaycan qoşunlarının Dağlıq Qarabağda apardığı uğurlu əməliyyatlar nəticəsində Cəbrayıl şəhərini azad etməsi barədə xəbəri sevinclə qarşıladığını və onun sonuncu arzusu olan - 25 ildən çoxdur işğal altında olan ata-baba torpağına qayıtmaq arzusuna bir addım qaldığını bildirir.

“Ərazilərin minalardan təmizləməsini və öz ata-baba yurdumuza yenidən qayıtmaq üçün orada aparılacaq bərpa və abadlıq işlərini səbirsizliklə gözləyirik. O torpaqlarda atalarımızın və babalarımızın məzarları var”, - deyə o bildirir.

Məqalədə Dağlıq Qarabağın beynəlxalq səviyyədə Azərbaycanın ərazisi olduğu faktı da vurğulanır. Diqqətə çatdırılır ki, artıq 1 aydır davam edən müharibə nəticəsində Azərbaycan Ordusu qələbələr qazanaraq Ermənistanın işğalı altında olan ərazilərinin bir hissəsini azad edib. İki dövlət arasında indiyədək üç atəşkəs razılaşması əldə olunsa da, bu razılaşmaların qısa müddət ərzində pozulduğu bildirilir.

Yazıda Bakı sakinlərinin Azərbaycanın 1990-cı illərdə itirdiyi bir çox ərazilərin bir hissəsini geri qaytardığını dedikləri vurğulanır. Şəhər ətrafındakı reklam lövhələrində və vitrinlərdə olan plakatlarda birmənalı şəkildə “Qarabağ Azərbaycandır! Qarabağ bizimdir!” şüarları yer almaqadadır.

Son döyüşlərdə oğlunun yaxın dostunun həlak olduğunu bildirən Bakı şəhər sakini Olga İsmayılova deyib: “Oğlanlarımız üçün narahat ola bilərik, ancaq bizə məxsus olan torpaqlarımızı geri qaytarmalıyıq”.

Məqalədə Azərbaycan Müdafiə Nazirliyinə istinadla minlərlə könüllünün qeydiyyatdan keçdiyi bildirilir.

Digər məcburi köçkün - inşaat işçisi olan 42 yaşlı Ramin Əliyevin də Müdafiə Nazirliyinə məktub yazaraq döyüşlərdə könüllü iştirak etmək istəyini bildirməsi də vurğulanır. “Vətən uğrunda ölməyə hazıram, qoy uşaqlarım mənimlə fəxr etsinlər,” - deyə o bildirib.

Məqalədə həmçinin döyüşə yazıla bilməyən sakinlərin başqa yollarla hərbçilərə kömək etdiyi də qeyd olunur. Əczaçılıq üzrə icraçı direktor Elnur Əliyevin maliyyə vəsaiti toplamaq və ön cəbhəyə lazım olan şeylər göndərmək üçün işdən müəyyən müddətə məzuniyyət götürdüyü bildirilir.

Müəllif ölkə ərazisinin demək olar ki, hər bir yerində radio verilişlərinin öz efir vaxtının çox hissəsini vətənpərvərlik ruhunda olan mahnılara həsr etdiyini, Azərbaycan bayrağının Türkiyə bayrağı ilə yan-yana balkonlarda dalğalandığını qeyd edir.

“Kəndimizin işğaldan azad olunması xəbərini eşidəndən bəri Bakıda özümü yad kimi hiss edirəm”, - deyən 33 yaşlı Nemət Səmədov uşaqikən ailəsi ilə birgə kəndlərini tərk edib. O deyib: “Mən könüllü kimi qeydiyyatdan keçmişəm və hərbi xidmətə cəlb olunmağımı gözləyirəm”.




İtaliyanın nüfuzlu “la Repubblica” qəzetində həmin qəzetin Azərbaycana ezam olunmuş xüsusi müxbiri Peitro Del Renin müəllifi olduğu “Azərbaycanlıların fəryadı: “Məhz bu səbəbdən Dağlıq Qarabağın ayrılmasını qəbul edə bilmərik” adlı məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, müəllif məqalədə düşmən artilleriyasından yalnız 10 km məsafədə yerləşən kənd təsərrüfatı regionundakı Tərtər şəhərinə səfər etdiyini və bu şəhərin sentyabr ayından bəri raket yağışına tutulduğunu və bombardman edildiyini bildirir. Müəllif qadağan edilmiş kasetli bombaların ermənilər tərəfindən Azərbaycana qarşı istifadəsinin “Amnesty International” tərəfindən qınanıldığını, Bərdə şəhərinin mərkəzi meydanında müharibə başlayandan bəri mülki vətəndaşlara qarşı ən ağır hücum nəticəsində 20 nəfərdən çox insanın ölümünə səbəb olan Rusiya istehsalı olan 300 mm kalibr güclü raketlərin qalıqlarını gördüyünü vurğulayır.

Məqalədə münaqişənin tarixinə və acı nəticələrinə də toxunulur, “Human Rights Watch” təşkilatına istinadən 1992-ci ildə Ermənistan ordusu tərəfindən Xocalıda mülki əhaliyə qarşı soyqırımı törədildiyi, rəsmi rəqəmlərə görə 106 qadın və 83 uşaq olmaqla 613 mülki şəxsin qətlə yetirildiyi bildirilir.

Məqalədə müəllifin səfəri zamanı söhbət etdiyi azərbaycanlıların fikirlərinə istinadən Qarabağsız Azərbaycanın mövcud ola bilmədiyi, öz müqəddəratını təyinetmə səbəbini əsas gətirərək Azərbaycan kimi müstəqil bir dövlətdən ayrılmanın dövlətlərin hamı tərəfindən qəbul edilmiş beynəlxalq hüququn ərazi bütövlüyü və digər müvafiq prinsiplərini pozduğu, 30 ildir ki, Ermənistanın Azərbaycan ərazilərini qaytaracağını gözlədiyi, lakin BMT-nin 4 qətnaməsinə baxmayaraq Ermənistanın bunu etmədiyi qeyd olunur. Eləcə də ötən əsrin son 10 ilində Ermənistandan və işğal olunmuş Azərbaycan ərazilərindən 1 milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyü, həmin şəxslərin bir çoxunun hələ də qaçqın düşərgələrində yaşadığı, hamısının öz evlərini, torpaqlarını itirdiyini və heç birinin bu müddət ərzində işğal olunmuş ərazilərdə öz yaxınlarının qəbirlərini belə ziyarət edə bilmədiyi və Dağlıq Qarabağın Azərbaycan xalqı üçün uzun müddətdir ki, qanayan bir yara olduğu deyilir.

Müəllifin söhbət etdiyi azərbaycanlılara istinadən Azərbaycanın uzun illərdir ki, Ermənistan və xüsusən dünyadakı erməni diasporu tərəfindən alovlandırılan təbliğatın, yəni Dağlıq Qarabağdakı münaqişənin dinlər arasında - erməni xristianları ilə azərbaycanlı müsəlmanlar arasında müharibə olduğunu iddia edən təbliğatın qurbanı olduğu, əslində isə Azərbaycanın müsəlman, katolik, provoslav və yəhudi kimi fərqli məzhəblərin sülh və harmoniya içində yaşadığı ölkə olduğu deyilir. Azərbaycan vətəndaşlarına istinadən Azərbaycan Ordusunun beynəlxalq terrorizmə qarşı müharibədə fövqəladə töhfələr verdiyi, ölkəmizin üstün silahlarla və ədaləti bərpa etmək istəyi ilə mükəmməl təlim keçmiş ordusunun olduğu, bu səbəbdən heç kimin köməyinə ehtiyacımızın olmadığı bildirilir.

Məqalədə Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycanın iqtisadi inkişaf və ordu quruculuğu sahəsində əldə etdiyi nailiyyətlərdən söhbət açılır, 1994-cü ildə atəşkəsin əldə edilməsindən sonra Azərbaycanın neft ehtiyatlarının istismarına böyük sərmayələrin cəlb olunduğu, illərdir ki, Azərbaycanın iqtisadi inkişafının, bu gün isə həmçinin Azərbaycan əsgərlərinin hərbi uğurlarının hamının gözü önündə olduğu deyilir. Məqalədə, eləcə də Azərbaycan Ordusunun son bir ayda dörd şəhəri və iki yüzə yaxın kəndi geri alaraq, erməni ordusunu məğlub etməkdə olduğu, Azərbaycan strateqlərinin əsas hədəfinin 1992-ci ildə ermənilər tərəfindən zəbt edilmiş Şuşa şəhərinin olduğu barədə məlumat verilir.

Müəllif Ermənistanın baş naziri Nikol Paşinyanın öz ordusunun məğlubiyyətini etiraf etmədən Rusiya Prezidentindən müttəfiq ölkənin təhlükəsizliyini təmin etmək üçün rəsmi Moskvanın göstərə biləcəyi yardımla bağlı məsləhətləşmələrə başlamasını istədiyini, Kremlin cavabının isə çox gecikmədiyini, döyüşlərin yalnız Ermənistan ərazisinə qədər uzanacağı təqdirdə Rusiyanın “lazımi” köməyi göstərməyə hazır olduğunu bildirdiyini deyir və artıq Dağlıq Qarabağın taleyinin bəlli olduğu fikirləri ilə məqaləsini tamamlayır.

Məqalə ilə aşağıdakı keçiddən tanış olmaq mümkündür:

https://www.repubblica.it/esteri/2020/11/01/news/nagorno-karabakh_guerra_azerbaijan_armenia-272562190/.




Kanadanın nüfuzlu “National Post” qəzetində “Azərbaycanın köçkünlük həyatı yaşayan futbol çempionları müharibədən sonra evlərinə qayıtmağı arzulayırlar” sərlövhəli məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, “Reuters” agentliyinə istinadla dərc olunan məqalədə son yeddi ildir Azərbaycanın futbol üzrə çempionu olan “Qarabağ” klubunun 30 ildən bəri başqa cür qələbəyə ümid etdiyi qeyd olunur. Yazıda “Qafqazın Barselonası” adlandırılan klubun Ağdama qayıtmaq arzusunda olduğu vurğulanır. Qeyd edilir ki, Dağlıq Qarabağ və onu əhatə edən yeddi rayon, o cümlədən Ağdam beynəlxalq səviyyədə Azərbaycanın ərazisi kimi tanınır.

Məqalədə sentyabrın 27-də başlayan hərbi əməliyyatlar barədə məlumat verilir, 1991-1994-cü illərdə müharibədə 30 minə yaxın insanın həlak olduğu bildirilir. Həmçinin “Qarabağ” sözünün tarixi haqqında məlumat öz əksini tapır.

Yazıda “Qarabağ” futbol klubunun keçirdiyi məşqlər barədə də məlumat verilir. Futbolçuların Prezident İlham Əliyevin işğaldan olunan ərazilərin adlarının qeyd olunduğu “Twitter” paylaşımlarının nümayiş etdirildiyi bilbordların yaxınlığında məşq etdikləri qeyd edilir. Klubun oyunçularından biri deyir ki, gün gələcək “Qarabağ” öz doğma torpağında futbol oynayacaq və bu oyunlara baxmaq üçün oraya çoxlu insan gedəcək.

Məqalədə həmçinin “Qarabağ” futbol klubu, onun indiyədək əldə etdiyi uğurlar barədə də ətraflı məlumat verilir.




Almaniyanın “Welt” xəbər agentliyində “Azərbaycan “AfD” partiyasının nümayəndələrinin Dağlıq Qarabağa səfərini qınayır” sərlövhəli məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, məqalədə Almaniyanın “AfD” partiyasının bir sıra üzvlərinin Dağlıq Qarabağdakı müharibə zonasına səfər etdikləri bildirilir. Qeyd olunur ki, Azərbaycan bununla bağlı Almaniya tərəfinə etiraz notası ünvanlayaraq, həmin səfəri sərt şəkildə qınayıb.

Bildirilir ki, Dağlıq Qarabağa səfər edən deputatların adları “arzuolunmaz şəxslər siyahısı”na salınmış və onların gələcəkdə Azərbaycana girişinə qadağa qoyulub.




Türkiyə kütləvi informasiya vasitələri (KİV) Ermənistanın işğalçılıq siyasəti və Azərbaycana qarşı davam etdirdiyi hərbi təxribatlar səbəbindən iki ölkə arasında yaranmış gərgin vəziyyəti diqqət mərkəzində saxlayır.

AZƏRTAC xəbər verir ki, Ermənistan silahlı qüvvələrinin dövlət sərhədi boyunca, eləcə də münaqişə bölgəsindən xeyli aralıda yerləşən yaşayış məntəqələrini atəş altında saxlamasına dair məlumatlar davamlı olaraq dünya və Türkiyə ictimaiyyətinə çatdırılır. Bildirilir ki, Ermənistan cəbhədəki məğlubiyyətinin əvəzini dinc əhalidən çıxmağa çalışır. Təcavüzkar dövlətin rəhbərliyi yaranmış vəziyyətin gerçək simasını dəyərləndirə bilmir. İşğalçı ölkədə sosial böhran son həddə çatır. Hakimiyyət isə həqiqəti xalqa deməkdən qorxur, xaricdən imdad diləməkdə davam edir.

Məlumatlarda müzəffər Azərbaycan Ordusunun işğal altındakı torpaqlarımızı yağı düşməndən azad etmək üçün haqq mübarizəsinə dair məlumatlara da geniş yer verilir. Faktlarla təqdim olunur ki, texniki təchizat, döyüş qabiliyyəti və ruh yüksəkliyinə görə düşmən ordusundan qat-qat üstün olan Azərbaycan Silahlı Qüvvələri işğalçıları işğal edilmiş torpaqlardan qovur, təcavüzkara davamlı olaraq sarsıdıcı zərbələr vurur.




“RT France” portalının “Ruptures” jurnalının rəhbəri Pyer Levinin “Dağlıq Qarabağ müharibəsi: qərəzli baxışdan çıxmaq” sərlövhəli məqaləsi dərc olunub. Məqalənin sentyabrın 27-dən başlayan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ müharibəsinə dair nadir obyektiv yazılardan biri olduğunu deyə bilərik.

AZƏRTAC xəbər verir ki, sentyabrın 27-dən başlayan müharibənin getdikcə daha da şiddətləndiyini qeyd edən P.Levi Fransada tarixçi və ziyalıları münaqişə ilə bağlı qərəzli, birtərəfli yanaşma nümayiş etdirməkdən çəkinməyə çağırıb. Bildirib ki, xüsusilə “Le Monde” qəzetində dərc olunan “tarixçi” Vinsent Duklert, eləcə də “40 ziyalı”dan ibarət kollektiv yazılarda birtərəfli mövqe tutulması, Fransaya, eləcə də beynəlxalq ictimaiyyətə ermənilərin tərəfini saxlamağa çağırışlar əslində bu ölkədəki tarixçi və ziyalıların karyerasına kölgə salır, onlara etibarın itməsinə səbəb olur.

“Ruptures” jurnalının rəhbəri “tarixçilər”ə və “ziyalılar”a beynəlxalq hüququn Azərbaycanın tərəfində olduğunu deyib. O bildirib ki, hazırda əsasən ermənilərin məskunlaşdığı Dağlıq Qarabağın heç vaxt dövlət olmadığını təsdiqləməliyik. Qondarma “Dağlıq Qarabağ respublikası” heç kim, hətta Ermənistan tərəfindən də tanınmır. Sovet dövründə bu ərazi Azərbaycanın tərkibində muxtar vilayət olub.

Dağlıq Qarabağ münaqişəsinin başlanma tarixi və 1994-cü ildə əldə olunan atəşkəs rejimi barədə məlumat verən müəllif ovaxtkı müharibə nəticəsində Dağlıq Qarabağın və ətraf rayonların Ermənistan tərəfindən işğal olunduğunu, yüz minlərlə azərbaycanlının doğma yurdundan didərgin salındığını diqqətə çatdırıb. Bildirib ki, həmin vaxtdan bəri Rusiya, ABŞ və Fransanın vasitəçiliyi ilə aparılan danışıqlarda münaqişənin həlli ilə bağlı heç bir irəliləyiş əldə olunmayıb.

Ziyalıların “Şuşadakı kilsədən başqa nə qədər digər kilsələri də bombalamaq lazım gələcək” ritorik sualını cavablandıran P.Levi bildirib ki, əslində bundan daha çox mülki əhalinin raket atəşinə tutulmasından danışmaq lazımdır.

Ermənistanın guya digər ölkələr, xüsusilə də Fransa tərəfindən unudulması, dəstəklənməməsi ilə bağlı yazılara münasibət bildirən müəllif deyir ki, əslində son həftələrdəki təhlillər, şərhlər və hesabatlar bunu göstərmir. “Çünki siyasi liderlər və ya əsas kütləvi informasiya vasitələri tərəfindən Azərbaycana dəstək yoxdur. Bakı yalnız BMT-nin dörd qətnaməsindən yararlana bilir. Cənubi Qafqazdakı reportyorların və ya xüsusi müxbirlərin sayı da əhəmiyyətli deyil, çünki onların böyük əksəriyyəti Ermənistan tərəfindədir. Azərbaycan tərəfinin fikrini bilmək üçün daha çox araşdırma aparmaq lazımdır”, - deyə P.Levi qeyd edib.

O, bildirib ki, münaqişənin həlli üçün tərəflər güzəştə getməlidirlər. Münaqişənin həlli isə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində olmalıdır.




Amerikanın “CBS” kanalı San-Fransiskodakı azərbaycanlı icma üzvlərinin erməni təcavüzünə və Azərbaycan ərazilərinin işğalına qarşı nümayişi barədə söhbət açıb.

AZƏRTAC xəbər verir ki, süjetdə münaqişə zonasında sentyabrın 27-də döyüşlərin yenidən başlanması və indi hər iki icmanın təmsilçilərinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki münaqişə haqqında ictimaiyyəti məlumatlandırmaq uğrunda mübarizə aparmaları barədə bildirilir. Bu münaqişə San-Fransiskoda “söz davası”na çevrilib.

Azərbaycan icmasının nümayəndələri ictimaiyyətin diqqətini çəkmək və hadisələrin birtərəfli işıqlandırılmasına qarşı etirazlarını ifadə etməkdən ötrü San-Fransisko şəhərində yürüş keçiriblər.

Yürüşün təşkilatçısı Nərmin Babayeva telekanala müsahibəsində deyib: “KİV ermənilərin etirazlarını işıqlandırır, lakin biz küçələrə çıxdıqda bizim etiraz aksiyamız az halda işıqlandırılır”. Aksiya iştirakçıları bəyan ediblər ki, 1991-ci ildən başlayaraq ermənilər azərbaycanlıları Dağlıq Qarabağ regionundan sıxışdırıb çıxarır, regionda etnik təmizləmə aparırlar.

“Birgə yaşayış yolu ilə sülh əldə olunacaq. Biz istəyirik ki, Azərbaycan torpaqlarını işğal edən erməni ordusu bu ərazilərdən çəkilsin, münaqişəyə qədər orada yaşayan azərbaycanlılar öz doğma yurdlarına qayıtsınlar”, - deyə aksiya iştirakçısı Ayka Ağayeva bildirib.



Səudiyyə Ərəbistanı Krallığının Londonda ərəb dilində nəşr olunan “Əl-Şərq Əl-Ausat” qəzetində “Yerevan Putindən kömək istəyir: Moskva toqquşmaların Ermənistanın daxilinə keçdiyi təqdirdə köməyini təqdim edə bilər” sərlövhəli məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistanın baş naziri Nikol Paşinyanın Moskvanın Ermənistanın təhlükəsizliyinin qorunmasını təmin etmək üçün müdaxilə etməsi ilə bağlı rəsmi müraciət etdiyi bildirilir. Paşinyanın sözügedən məktubuna Rusiya XİN-dən rəsmi cavabın gecikmədiyi və cavab məktubunda rəsmi Moskvanın Ermənistanın ərazisi üçün birbaşa təhlükə yaranmadığı və qarşıdurmaların birbaşa Ermənistan ərazisinə keçdiyi halda Rusiyanın lazım olan yardımı edə biləcəyi qeyd edilib.

Bildirilib ki, ölkəsinin rəzil duruma düşdüyünü anlayan Ermənistanın Rusiyadakı səfiri V.Toğanyan Rusiya xəbərlər agentliyinə verdiyi müsahibədə Ermənistanın Rusiya ilə ikitərəfli müqavilələri çərçivəsində təhlükəsizlik məsələləri ilə bağlı məsləhətləşmələr aparmaq istədiyini və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının iştirakı barədə heç bir söhbət getmədiyi və erməni tərəfinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına bundan əvvəl yardım üçün müraciət etmədiyini söyləyib. Eyni zamanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəsinin digər tərəflərin Qarabağ regionunda davam edən qarşıdurmaya müdaxilə etməsini istəmədiyi, Ermənistanın böhranı beynəlmiləlləşdirməyə çalışdığı barədə fikirləri diqqətə çatdırılıb.

Daha sonra Prezident İlham Əliyevin öz müsahibəsində üçüncü bir ölkənin müdaxiləsini gözləmədiyi, ətrafımızdakı ölkələrlə ortaq və dost olduğumuz üçün hər hansı bir dövlətin müdaxiləsi ehtimalını da görmədiyi, Ermənistanın digər ölkələri döyüşlərdə iştirak etmək üçün sürükləmək istədiyi və ancaq bunun mümkün olmayacağına əminliyi barədə fikirləri qeyd edilib.

Məqalədə o da bildirilib ki, Azərbaycan Prezidenti Bakının münaqişəni həll etmək məqsədilə danışıqlar masasına oturmağa hazır olduğunu təsdiqləyib, lakin döyüşlərin uzadılmasının yalnız 3 atəşkəs müqaviləsini pozan Ermənistanın mövqeyindən asılı olduğunu və bunun işğalçı ölkənin öz məğlubiyyətini etiraf etdiyi zaman torpaqlarımızı tamamilə azad etməsinə dair cədvəl təqdim etdikdən sonra baş verə biləcəyini də əlavə edib.

Ərəb qəzeti onu da vurğulayıb ki, son bir ay ərzində BMT Təhlükəsizlik Şurasının Qarabağ münaqişəsini müzakirə etmək üçün iki qapalı iclas keçirməsinə baxmayaraq, həmin iclasların sonunda heç bir qərar və məcburi sənəd qəbul edilməyib.




Özbəkistanın “kun.uz”, “zamin.uz” və “azon.uz” portalları öz səhifələrində Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu ilə görüşü haqqında özbək və rus dillərində məqalələr yerləşdirib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının görüşdə cəbhədəki son vəziyyət barədə verdiyi məlumatlar, müharibənin ilk saatlarından başlayaraq Türkiyənin Azərbaycanın yanında olması ilə bağlı fikirləri məqalələrdə öz əksini tapıb.

Azərbaycan Prezidentinin çıxışından sitat gətirilən məqalələrdə deyilir: “Bu, bir daha göstərir biz bütün dövrlərdə - yaxşı günlərdə, çətin günlərdə bir-birimizin yanındayıq. Bu siyasi və mənəvi dəstək əlbəttə ki, bizi ruhlandırır və biz haqq işimizi davam etdiririk. Bildiyiniz kimi, əməliyyat uğurla davam etdirilir. Bu günə qədər bir çox kəndlər, şəhərlər, qəsəbələr işğalçılardan azad edilibdir, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərləri. Ümumiyyətlə, təqribən 200-ə yaxın yaşayış məntəqəsi düşməndən azad edilib və bu, davam edir”.

“azon.uz” və “zamin.uz” portalları yazır: “Azərbaycan Prezidenti görüşdə bildirib ki, bu yaxınlarda Ermənistanın baş naziri Rusiya Prezidenti cənab Putinə məktub göndərib. Bu məktub əslində məğlubiyyətin etirafıdır. Çünki Rusiyadan hərbi dəstək istənilib, halbuki buna heç bir əsas yoxdur. Azərbaycan öz hərbi əməliyyatlarını beynəlxalq birlik tərəfindən tanınmış ərazisində keçirir”.




Malayziyanın BERNAMA Milli İnformasiya Agentliyi Azərbaycan Silahlı Qüvvələrinin işğal altında olan torpaqların azad olunması uğrunda gedən döyüşlərdə əldə etdiyi qələbələri geniş işıqlandırır.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, agentlik Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC) istinadla Ermənistan tərəfindən uzun illərdir ki, işğal altında saxlanılan tarixi Azərbaycan torpaqları olan Dağlıq Qarabağın və ətraf rayonların azad olunması istiqamətində artıq bir aydan çoxdur ki, davam edən müharibə barədə malayziyalı oxuculara həm ingilis, həm də Malay dilində obyektiv xəbərlər çatdırır. Belə ki, agentliyin son məlumatlarında Azərbaycan hava hücumundan müdafiə qüvvələri tərəfindən Ermənistana məxsus SU-25 qırıcı təyyarəsinin məhv edilməsi barədə informasiya yer alıb. Bildirilir ki, bu, son dörd gündə Ermənistanın məhv edilən üçüncü hərbi təyyarəsidir.

Döyüşlərin gedişi ilə əlaqədar verilən digər məlumatda isə Azərbaycan Prezidenti İlham Əliyevin öz “Twitter” hesabında paylaşdığı daha bir neçə kəndin düşmən işğalından azad edilməsi barədə informasiya barədə xəbər verilir.

Həmin xəbərdə Azərbaycan Prezidentindən sitat gətirilərək deyilir: “Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”.

Xəbərlərdə münaqişənin tarixi və səbəbləri barədə də malayziyalı oxuculara geniş məlumatlar çatdırılır. Qeyd edilir ki, Ermənistanın Azərbaycana qarşı əsassız torpaq iddialarına 1988-ci ildə başlanıb. 1992-ci ildə iki keçmiş sovet respublikası arasında müharibəyə çevrilən münaqişə xarici havadarlarına arxalanan Ermənistanın qələbəsi ilə yekunlaşıb. 1994-cü ilin mayında tərəflər arasında atəşkəs elan olunsa da, Ermənistan Azərbaycan ərazilərinin 20 faizini işğal edib. Dağlıq Qarabağda yaşayan separatçı ermənilər müstəqil respublika elan etsələr də, bu qondarma “dövlət” heç bir beynəlxalq qurum və dövlət tərəfindən tanınmayıb. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan ordusunun Azərbaycanın işğal edilmiş bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması barədə dörd qətnamə qəbul etsə də, Ermənistan hökuməti bu sənədləri icra etməyib.

Cari il sentyabrın 27-də Ermənistan ordusunun növbəti təxribatının qarşısını alan Azərbaycan Silahlı Qüvvələri əks-hücuma keçərək işğal altında olan torpaqları azad etməyə başlayıb.




Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlunu qəbul edən zaman səsləndirdiyi bəyanatlar nüfuzlu ərəb KİV-in diqqət mərkəzindədir.

AZƏRTAC xəbər verir ki, “Al Aarabia” və “Aljazeera” televiziya kanallarının reportajlarında, habelə internet saytlarında Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin həmin görüşdə səsləndirdiyi aşağıdakı fikir vurğulanıb: “Biz istəyirik ki, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş digər torpaqlardan çıxarılması danışıqlar masası arxasında qısa müddət ərzində təmin olunsun. Əks təqdirdə biz istənilən yolla öz ərazi bütövlüyümüzü bərpa etməyə davam edəcəyik və dediyim kimi, sona qədər gedəcəyik”.

Reportajlarda həmçinin bildirilib ki, Ermənistanın baş naziri Paşinyanın Rusiya Prezidenti Vladimir Putinə məktubu erməniləri məyus edib. Rəsmi Moskva qeyd edib ki, rəsmi Yerevanla imzalanmış saziş yalnız Ermənistan ərazisinə şamil olunur, Azərbaycanın ərazisi olan Qarabağda isə bu sənədin hüquqi qüvvəsi yoxdur.

Televiziya kanalları ilə yanaşı, “Arabnews” və “Saudigazette” qəzetləri də Azərbaycan Prezidentinin qətiyyətli mövqeyindən yazıblar. Bu qəzetlərdə dərc olunan məqalələrdə vurğulanıb ki, Ermənistanın öz qoşunlarını Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarması sülhə nail olmağın yeganə yoludur.

Ərəb KİV onu da diqqətə çatdırıb ki, Prezident İlham Əliyev döyüş əməliyyatının uğurla davam etdirildiyini, bu günə qədər 200-dən çox kənd, şəhər, qəsəbənin, həmçinin Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı şəhərlərinin işğalçılardan azad edildiyini bildirib.




Almaniyanın ARD televiziya kanalında Azərbaycana səfər etmiş jurnalist Oliver Mayer-Rütün Tərtər barədə hazırladığı “Dağlıq Qarabağ münaqişəsi: atəşkəsin pozulmaları” sərlövhəli məqaləsi əsasında reportaj efirə verilib.

AZƏRTAC xəbər verir ki, reportajda bildirilir ki, Sovet İttifaqının dağılmasından sonra Dağlıq Qarabağ Ermənistanın dəstəyi ilə birtərəfli qaydada “müstəqilliyini elan edib”. Qondarma “Dağlıq Qarabağ respublikası” beynəlxalq səviyyədə tanınmır və beynəlxalq hüquqa əsasən Azərbaycanın tərkib hissəsi hesab olunur.

Diqqətə çatdırılıb ki, sentyabrın 27-dən münaqişə yenidən alovlanıb. Ermənistan silahlı qüvvələri Tərtər rayonunu və ətraf kəndləri, həmçinin bir sıra digər yaşayış məntəqələrini bombalayıb. İndiyədək yüzlərlə mülki şəxs həlak olub.

Reportajda eyni zamanda Ermənistan tərəfindən Tərtərin raket atəşinə tutulması nəticəsində həlak olan 16 yaşlı Orxan İsmayılzadənin babası Tofiq Abbasovun müsahibəsi də tamaşaçılara təqdim olunub.